# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 79** **Bakı şəhəri, 4 mart 2020-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 467; 2014, № 4, maddə 450; 2016, № 4, maddə 820, № 6, maddə 1201, № 12, maddə 2239; 2017, № 2, maddə 307; 2018, № 11, maddə 2431; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 dekabr tarixli 467 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.5-ci bəndə "əyani" sözündən sonra "(tədrisə tam cəlb olunma – fulltime və tədrisə qismən cəlb olunma – parttime)" sözləri əlavə edilsin.

**2.** 1.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"1.6. Magistratura səviyyəsində əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə təhsilin normativ müddəti 1,5-2 ildir (qiyabi forma üzrə təhsil müddəti əyani təhsilalma formasının tədrisə tam cəlb olunma (fulltime) növü üzrə təhsilin normativ müddətindən altı ay artıqdır). Bu müddət ayrı-ayrı ixtisaslaşmaların təhsil proqramları ilə müəyyənləşdirilir. Magistratura səviyyəsində əyani təhsilalma formasının tədrisə qismən cəlb olunma (parttime) növü üzrə isə təhsilin müddəti təhsilalanın fərdi tədris planına uyğun olaraq müəyyənləşdirilir.".

**3.** 1.7-ci bəndin birinci abzasında "və ödənişsiz əsaslarla" sözləri "əsasla və dövlət sifarişi əsasında" sözləri ilə əvəz edilsin.

**4.** 2.3-cü bəndin üçüncü abzasının birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Təhsil proqramlarında göstərilən fənlər üzrə proqramlar ali təhsil müəssisələri və AMEA tərəfindən hazırlanır, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir, tədris planlarına təhsil müəssisələri və AMEA tərəfindən daxil edilən seçmə fənlər üzrə proqramlar isə təhsil müəssisələri və AMEA tərəfindən təsdiq edilir.".

5. 2.6-cı bənddə "Təhsil Nazirliyi" sözləri "Nazirlər Kabineti" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş Naziri***

Xalq qəzeti 2020.- 8 mart.- S.5.